# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Respublikasının Ailə Məcəlləsinin tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

“Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 23 sentyabr tarixli 1160 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209; 2002, № 3, maddə 148, № 10, maddə 635; 2005, № 7, maddə 678; 2006, № 5, maddə 472, № 10, maddə 902; 2010, № 3, maddə 264; 2012, № 12, maddə 1360; 2014, № 12, maddə 1662; 2017, № 12 (II kitab), maddə 2526; 2018, № 12 (II kitab), maddə 2737; 2019, № 8, maddə 1478; 2020, № 6, maddə 804) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyat kitablarının formaları və bu kitablardakı qeydlər əsasında verilən şəhadətnamələrin formaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. Birinci abzasda “15” rəqəmləri “17” rəqəmləri ilə əvəz edilsin.
2. 16 və 17 nömrəli əlavələr təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 2 dekabr 2020-ci il

№ 480

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 dekabr tarixli 480 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**16 nömrəli əlavə**

# AZƏRBAYCAN RESPUBLİKASI DOĞUM HAQQINDA ELEKTRON ŞƏHADƏTNAMƏ

| DOĞUMU QEYDƏ ALINAN ŞƏXS | |
|---|---|
| Soyadı<br>Adı<br>Atasının adı<br><br>Cinsi<br>(kişi, qadın)<br><br>Doğulduğu tarix<br>(gün, ay, il)<br><br>Doğulduğu yer<br>respublika (ölkə), şəhər (rayon), kənd (qəsəbə)<br><br>Fərdi identifikasiya nömrəsi | |
| ATA | |
| Soyadı<br>Adı<br>Atasının adı<br><br>Fərdi identifikasiya nömrəsi<br>(Azərbaycan Respublikasının vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün)<br><br>Milliyyəti | |

| ANA | |
|---|---|
| Soyadı<br>Adı<br>Atasının adı<br><br>Fərdi identifikasiya nömrəsi (Azərbaycan Respublikasının vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün)<br><br>Milliyyəti | |
| Doğumun qeydə alındığı tarix<br>(gün, ay, il) | |
| Doğum haqqında akt qeydinin nömrəsi | |
| Şəhadətnamənin qeydiyyat nömrəsi | |
| Qeydə alan orqanın adı və vəzifəli şəxsi<br>(vəzifəsi, adı, soyadı) | |
| Şəhadətnamə gücləndirilmiş elektron imza ilə təsdiq edilmişdir. | |

Azərbaycan  Respublikası Nazirlər
Kabinetinin 2020-ci il 2 dekabr
tarixli 480 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**17 nömrəli əlavə**

# AZƏRBAYCAN RESPUBLİKASI ÖLÜM HAQQINDA ELEKTRON ŞƏHADƏTNAMƏ

| **ÖLÜMÜ QEYDƏ ALINAN ŞƏXS** | |
|---|---|
| Soyadı<br>Adı<br>Atasının adı<br><br>Cinsi<br>(kişi, qadın)<br><br>Öldüyü tarix<br>(gün, ay, il)<br><br>Öldüyü yer<br>respublika (ölkə), şəhər (rayon), kənd (qəsəbə)<br><br>Fərdi identifikasiya nömrəsi (Azərbaycan Respublikasının vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün) | |
| Ölən şəxsin doğulduğu tarix<br>(gün, ay, il) | |
| Ölən şəxsin doğulduğu yer<br>respublika (ölkə), şəhər (rayon), kənd (qəsəbə) | |
| Ölümün səbəbi | |

| | |
|---|---|
| Ölümün qeydə alındığı tarix<br>(gün, ay, il) | |
| Ölüm haqqında akt qeydinin nömrəsi | |
| Şəhadətnamənin qeydiyyat nömrəsi | |
| Qeydə alan orqanın adı və vəzifəli şəxsi<br>(vəzifəsi, adı, soyadı) | |
| Şəhadətnamə gücləndirilmiş elektron imza ilə təsdiq edilmişdir. | |